# “Olimpiya dünyası” şahmat bəstəçiliyi üzrə 24-cü beynəlxalq yarışını yekunlaşdırdı

## Olimpiya dünyası 2011 (#3 - Üçgedişli) Hakim: Aleksandr Melniçuk (Rusiya)

Yarışda 8 ölkədən 21 müəllifin 40 məsələsi iştirak etdi: Azərbaycan (Miradil Zeynallı, Kənan Vəlixanov, Sahib Həsənzadə, İlham Əliyev, Fərid Aslanov, Ramil Səfərəliyev), İsrail (Leonid Lyubashevsky, Leonid Makaronez, Arieh Grinblat), Rusiya (Yevgeniy Fomiçev, Aleksandr Nikoliçev, Vladimir Şmatov, Pavel Muraşev, Mixail Kostılev), İtaliya (Alberto Armeni), ABŞ (Rauf Əlövsətzadə, Robert Burger), Ukrayna (Aleksandr Tsaplin, Fedor Kapustin), Belarus (Vladimir Sıçev), Ekvador (Xavier Jimenez).

A.Melniçuk: Yarışların təşkilatçısı İ.Əliyevin hər dəfə yeni başlayan tərtibçiləri yarışda iştiraka cəlb etmə bacarığına həsəd aparıram. Adətən bu 9-16 yaşında olan Azərbaycan təmsilçiləridir. Hər il növbəti ulduzcuq alışır, onların əsərləri yadda qalır və sözsüz ki, təltifdə də qeyd olunur. 2011-ci ildə isə biz uzaq Ekvadorlu şahmatçının ilk məsələsini gördük! İstedadların aşkar edilməsi beynəlxalq səviyyəyə qalxdı!

Yarışın yekununu mən qeyri standart vermək qərarına gəldim. Adətən, bütün tapılan sələflər qeyd olunur, qiymətləndirmədə hakimin kriteriyasının prinsipləri elan edilir. Bütün bunları mən etməyəcəm. Sələflər barədə mən müəlliflərə şəxsi yazışma vasitəsi ilə məlumat verdim. Hakimlikdə mənim meylimə və şahmat bəstəçiliyi baxışlarıma gəldikdə isə, əvvəllər dəfələrlə bu barədə söyləmişəm və təkrarın mənası yoxdur. Bu yaxınlarda gözəl kəlamı A.Karamanits söyləyib: “ Təəssürat yoxdur - məsələ də yoxdur”. Sadə, həcmli və düzgündür!

Heyiflər olsun ki, mən bir miniatür də qeyd etmədim. İki üçgedişlinin sələfi tapıldı, bir neçə məsələdə isə bəstəçilik yanlışlıqları müşahidə olunurdu. Əksər miniatürlərdə belə hiss var idi ki, müəlliflər sadəcə olaraq öz soyadlarını diaqram üzərində görmək və beləliklə məkanda özlərini əbədiləşdirmək istəyirlər. Qayaüstü yazılar kimi “burada filankəs olub”... Yəni, şahmat bəstəçiliyi mahiyyəti deyil, daha çox soyad təqdim edilir.

Ancaq yarış tam alındı! Əminəm ki, təltifə düşən məsələlər “tamaşaçıların”, oxucuların və tələbkar şahmat bəstəçilərinin xoşuna gələcək. Beləliklə, 2011-ci il üçün “Olimpiya dünyası”-nın üçgedişli elitasını təqdim edirəm.

### M Ü S T Ə Q İ L   H Ə L L   E D İ N

*576. Arieh Grinblat (İsrail)*
*1-ci Mükafat*



*#3 (3 gedişə mat)*

*686. Arieh Grinblat (İsrail)*
*2-ci Mükafat*



*#3 (3 gedişə mat)*

*699. Kənan Vəlixanov (Azərbaycan)*
*3-cü Mükafat*



*#3 (3 gedişə mat)*

*610a.Sahib Həsənzadə (Azərbaycan)*
*4-cü Mükafat*



*#3 (3 gedişə mat)*

*625.Leonid Makaronez (İsrail)*
*5-ci Mükafat*



*#3 (3 gedişə mat)*

*695.V.Sıçev (Belarus), F.Kapustin*
*(Ukrayna), Fəxri rəy*



*#3 (3 gedişə mat)*

***576. Arieh Grinblat (İsrail) 1-ci Mükafat.***

1.Fg8! zz 1...f6 2.Abc6+ Şxc5 3.d4#, 1...e6 2.Şd6 - 3.Abc6#, 1...bxc5 2.Aec6+ Şc4 3.d3#, 1...bxa4 2.cxb6 [3.Tc4#] Fd3 3.Aec6#. Gedişlərin funksiyasının dəyişməsi tükənməz mövzusu bu məsələdə ağ atların oyununda təqdim edilib. Variantlar xanaların təcridi motivləri ilə birləşdirilib. Düzdür, qeyd etmək gərəkdir ki, M.Marandyuk və V.Şavırın artıq çoxdan ağ fiqurların üç gedişinin funksiyasını dəyişdirirlər. Ancaq, bu sözsüz ki, hazırkı şahmat əsərinin gözəlliyini qavramağa mane olmur.

***686. Arieh Grinblat (İsrail) 2-ci Mükafat.***

1.g3! (2.Td7+ Ce4 3.Fb7# (A), 2...Cc6 3.Td6#, 2...Ce6 3.Fc4# (B), 1...Ad2 2.Fb7+ (A) Cc4 3.Ad6#], 1...Ad4 2.Fc4+ (B) Cxc4 (2...Cc6 3.Tc7#) 3.Ae3#; 1...Cc6 2.Td7 Cb6 3.Td6#. Ar filin funksiyasgngn dəyiöməsi ilə Hannelius müvzusunun variant formasg. 576 saylg məsələdə olduru kimi, məzmun var, ancaq harmoniya hissi zatmgr.

***699. Kənan Vəlixanov (İmişli, Azərbaycan) 3-cü Mükafat.***

1.Th8! [2.e6+ Fe5 3.Td8#, 2.Td8+ Fd6 3.e6#), 1...b2 2.Td8+ Fd6 3.e6#, 1...Ac4 2.Vc3+ Şc5 3.Vxc4#, 1...e3 2.Th4+ Ae4 3.Vc3#, 2...Fd5 3.Axc6#, 1...e6 2.Td8+ Fd6 3.Txd6#, 1...Fd6 2.e6+ Fe5 3.Td8#. Yarışın ən oyuncul məsələsi: bağlama ilə dörd mat qaraların müqavimət göstərən fiqurları ilə! Təhlükədə gedişlərin yerdəyişməsini cüzi nöqsan sayıram.

***610a. Sahib Həsənzadə (İsmayıllı, Azərbaycan) 4-cü Mükafat.***

1.Şe3! [2.Ad2#], 1...c4+ 2.Ad4+ Şc5 3.Vc6#, 1...Te7+ 2.Ae5+ Şxd6 3.Vc6#, 1...Şc4 2.Ad2+ Şc3 3.Vc1#, 1...gxf3 2.Vd1+ Şc4 3.Vd3#, 2...Şc6 3.Vxf3#. Sahib Həsənzadə (İsmayıllı, Azərbaycan), 13 yaş! Bu da yeni ulduz! Hərçənd ki, biz bir gedişli təhükəni, ilk gedişlə xananın məhrum edilməsini görürük, ancaq tamaşa necə də cəlbedicidir! Özünəşah - ağ şah cəsarətlə şahlar altına gedir. At öncə təkzibdə uyğunlaşır 1.Ae5+? Şd4 2.Va1+ Şd5 3.Vd1# 1...Şxd6!, həldə isə ikinci gedişlərdə özünün bütün gözəllik və bacarığını göstərərək, üç müxtəlif xanada at oynadır!

***625. Leonid Makaronez (İsrail) 5-ci Mükafat.***

1.Şc1! (2.Ve1+ Şf6 3.Ve7#), 1...d2+ 2.Txd2+ Şf4 3.Ve3#, 1...Şf6 2.Tdxg4+ Şf7 3.Vxg7#, 1...Ff8 2.Te4+ Şxe4 3.Vd4#, 2... Şxd5 3.Te5#, 1...Te6 2.Tdxg4+ Şxd5 3.Vc5#. Həllçilərə salam! Effektli ilk gedişlə ikinci gedişlərdə “d4” topunun çeşidli variasiyaları! İki mat təcridlədir, biri-fəal olaraq.

***695. Vladimir Sıçev (Belarus), Fedor Kapustin (Ukrayna) Fəxri rəy.***

1.h4! zz 1...gxh3 keçiddə vuruş 2.0-0+ Şxg3 3.Fe1#, 1...c4 2.Şe2 Şxg3 3.Fe5#, 2...Fe8 3.Txg4#, 1...e2 2.b7 - 3.b8=V#. Valladao taskı. Məsələnin orijinallığına “irişmək” də olardı: <http://www.yacpdb.org/?id=91797> və <http://www.yacpdb.org/?id=332663>. Ancaq, birincisi bu müştərək ifada yeni mövzu alınıb, ikincisi isə taxtada fiqurların sayı əhəmiyyətli dərəcədə ixtisar edilib.

*652. Kənan Vəlixanov (Azərbaycan)*
*1-ci tərifnamə*



*#3 (3 gedişə mat)*

*672. Arieh Grinblat (İsrail)*
*2-ci tərifnamə*



*#3 (3 gedişə mat)*

*737a. Xavier Jimenez (Ekvador)*
*3-cü tərifnamə*



*#3 (3 gedişə mat)*

***652. Kənan Vəlixanov (İmişli, Azərbaycan)***

1.Vf3! (2.Vd5+! cxd5 3.Tc8#), 1...Ad4 2.Vc3+! bxc3 3.Fa3#, 1...Ae3 2.Ad7+ Şc4 3.Ve4#, 1...fxe5 2.fxe5 - 3.Vf8#. Vəzirin iki qurbanı. Mövqenin potensialı var, ona görə ki, yanlış izdə vəzirin üçüncü qurbanı var 1.Ve2? Ae3 2.Vb5+!, hansı ki, təhlükədə olan 1.Vd5+! qurbanına əks-səda görünür. Ancaq müəllif yanlış izi göstərməyib, görünür, kobud təkzibin olduğuna görə.

***672. Arieh Grinblat (İsrail)***

1.Tc2? - 2.Axe6+ (A) Şf3 3.Txf5# (B) 1...Vh2!, 1.Txc6? - 2.Txf5+ (B) exf5 3.Ad5# (C) 1...Af6!. Həlli: 1.Tc3! [2.Ad5+ (C) cxd5, exd5 3.A(x)e6# (A)], 1... Af8 / Ac5 2.Txf5+ exf5 3.Fe5#. Təhlükələrin maraqlı növbələnməsi. Həllin özü isə artıq xəyali oyunda var.

***737a. Xavier Jimenez (Ekvador)***

1.Vb5! [2.Vxd3#], 1...Txd5 2.Vc4+ Td4 3.Vxe6#, 2...Şe5/e3 3.Vf4# (1...Şe3 2.Vc5+ Şe4 3.Vd4#). Təcrid ilə üç mat! Xüsusi ilə qeyd edirəm: müəllifin ilk məsələsidir!

## Olimpiya dünyası 2012 İ L K   N Ə Ş R

*802. Robert Lincoln*
*(ABŞ)*



*#2 (2 gedişə mat)*

*803. Rauf Əlövsətzadə*
*(ABŞ)*



*#2 (2 gedişə mat)*

*804. Alberto Armeni*
*(İtaliya)*



*#2 (2 gedişə mat)*

*805. Richard Becker*
*(ABŞ)*



*Heç-heçə (=)*

*806. M.G.Garcia və İuri Akobia*
*(Argentina, Gürcüstan)*



*Heç-heçə (=)*

*807. S. Didux, S. I. Tkachenko*
*(Ukrayna)*



*Heç-heçə (=)*

***İlham Əliyev (Sumqayıt),***
***Beynəlxalq hakim***